QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Gənclərə örnək Mübariz İBRAHİMOV**



6

SƏS

№ 047 (7457)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

23 iyun 2026-cı il.
Qiymətı 1 manat

# Qardaşlıq və etibarlı əməkdaşlıq!



2

# 1 trilyonluq müharibə

İranla ABŞ arasında ən böyük problem etimadsızlıq, ən real həll isə qarşılıqlı güzəştlər və təhlükəsizlik təminatlarıdır



4

**"Azərbaycan ordusu müstəqilliyimizin əsas təminatçısıdır"**




5

**Diabet üçün təhlükəli meyvə və tərəvəzlər - bu yazını mütləq oxuyun!**



8

**Qlobal istiləşməni yavaşlatmaq mümkündür**



7

**"Kurmanci here gule": Allah xətrinə, ta "vere"!**



5

**Tramp öz şərtlərini diktə edir - yumruqlu təhdid sülh deyil...**



4

# Qardaşlıq və etibarlı əməkdaşlıq!

**“Azərbaycan ilə Türkmənistanı ənənəvi dostluq, mehriban qonşuluq və əməkdaşlıq münasibətləri birləşdirir. İkitərəfli münasibətlərimiz ortaq soy-kök və milli-mənəvi dəyərlər ilə bir-birinə sıx bağlı olan qardaş xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir”. Azərbaycan Prezidenti İlham Əliyevin Türkmən xalqına ünvanladığı bu sözlər ölkəmizə dövlət səfərinə gələn Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun keçirdiyi görüşlərdə, imzaladığı ikitərəfli sənədlərdə də öz təsdiqini tapdı.**

Prezidentlərin təkbətək görüşündən sonra “Dostlug” neftdaşıyan tankerinin onlayn formatda hədiyyə olunması münasibətlərdə yeni çalarları əks etdirir. Qeyd olunub ki, Azərbaycan tərəfindən Türkmənistana hədiyyə edilən “Dostlug” neftdaşıyan tankeri Bakı gəmiqayırma zavodunda inşa olunub. Bu, Azərbaycan-Türkmənistan dostluq əlaqələrinin inkişafına da töhfədir. Eyni zamanda, Bakı gəmiqayırma zavodunda irihəcmli və texnoloji baxımdan mürəkkəb gəmiqayırma layihələrinin həyata keçirilməsinin mümkün olduğunu bir daha göstərir.

İki ölkə arasında imzalanmış sənədlərin İlham Əliyevin və Sərdar Berdiməhəmmədovun iştirakı ilə mübadiləsi mərasimi olub. Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov prezidentlərin Birgə Bəyanatını imzalayıblar. “Azərbaycan Respublikası ilə Türkmənistan arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsi üçün Texniki şərtlər”, “Azərbaycanın Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin gömrük statistikası sahəsində əməkdaşlıq haqqında Protokol”, “Azərbaycan Gənclər və İdman Nazirliyi ilə Türkmənistanın Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsi arasında idman sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkmənistanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Türkmənistanın Səhiyyə və Tibb Sənayesi Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Hökumətlər arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2026-2028-ci illər üzrə sənaye sahəsində əməkdaşlıq Proqramı”, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkmənistanın Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə Türkmənistan Maliyyə və İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlığın inkişafı və dərinləşdirilməsinin əsas istiqamətləri haqqında Saziş”, “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Türkmənistanın Xarici İşlər Nazirliyi arasında 2026-2029-cu illər üçün Əməkdaşlıq Proqramı”adlı sənədləri mübadilə ediblər.










Sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Dövlətimizin başçısı İlham Əliyev bu səfərə çox böyük əhəmiyyət verdiyini, onun ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət göstərəcəyinə əminliyini ifadə edib. Qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən geniş gündəliyin olduğunu, bu gün bir çox məsələlər üzrə fikir mübadiləsinin aparıldığını, müzakirələrin nümayəndə heyətlərinin iştirakı ilə davam etdiriləcəyini vurğulayan Prezident İlham Əliyev Türkmənistan Prezidentinin Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etməsindən məmnun olduğunu deyib.

Prezident İlham Əliyev ölkələrimiz arasında imzalanacaq sənədlərin əhəmiyyətinə də toxundu, bunu, münasibətlərimizin geniş gündəliyinin göstəricisi kimi qiymətləndirib. Dövlətimizin başçısı Türkmənistan tərəfindən bu məscidin hədiyyə edilməsini ölkələrimiz arasında səmimi qardaşlıq münasibətlərinin daha bir nümayişi olduğunu deyib. Hazırda qarşıda qlobal gündəlikdə olan məsələlərin - nəqliyyat və enerji təhlükəsizliyinin dayandığını vurğulayan dövlətimizin başçısı bu xüsusda Azərbaycanın və Türkmənistanın həm milli səviyyədə, həm də birgə təşəbbüslər vasitəsilə yalnız regionda deyil, həm də qlobal səviyyədə çox mühüm rol oynadıqlarını, bu rolun gələcəkdə daha da artacağını deyib.

Görüşdə çıxış edən Prezident Sərdar Berdiməhəmmədov səmimi qəbula, göstərilən qonaqpərvərliyə və Azərbaycana dövlət səfərinə dəvətə görə minnətdarlığını bildirib. Sərdar Berdiməhəmmədov beynəlxalq arenada, həmçinin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və MDB çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Ali qonaq Azərbaycanın Türkmənistanın neytral xarici siyasətinə, sülh və davamlı inkişaf naminə irəli sürdüyü beynəlxalq təşəbbüslərə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini deyərək, eyni zamanda, Türkmənistanın da Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini dəstəklədiyini qeyd etdi, bu ənənənin gələcəkdə də davam etdiriləcəyini bildirib.

Xəzər dənizi ilə bağlı əməkdaşlığa toxunan Türkmənistan Prezidenti təhlükəsizlik, iqtisadiyyat, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində birgə fəaliyyətin hər iki ölkə üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Bu xüsusda Türkmənistanın Xəzər dənizi məsələlərinə dair yüksəksəviyyəli görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini, həmçinin Xəzər Ekoloji Təşəbbüsünün irəlilədilməsi istiqamətində Azərbaycanın dəstəyinə ümid bəslədiyini bildirib. Nəqliyyat-tranzit sahəsini əməkdaşlığın strateji istiqamətlərindən biri kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov Türkmənistanın və Azərbaycanın əlverişli coğrafi mövqeyinin beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı baxımından mühüm üstünlüklər yaratdığını deyib.

**Ardı Səh. 3**

# Qardaşlıq və etibarlı əməkdaşlıq!

Əvvəli səh. 2

Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə nəqliyyat dəhlizini uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov vurğuladı ki, ölkələrimiz, həmçinin Türkmənistan-Azərbaycan-Gürcüstan-Rumıniya marşrutu üzrə Xəzər dənizi-Qara dəniz nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünü dəstəkləyir. Ali qonaq Xəzər və Qara dəniz regionlarının birləşdirilməsinin iqtisadi, ticarət və investisiya əməkdaşlığının inkişafı üçün yaxşı imkanlar açdığını deyib. Türkmənistan Prezidenti səfərinin ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsində mühüm mərhələ olacağına əminliyini bildirib, dövlətimizin başçısına fəaliyyətində yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və əmin-amanlıq arzulayıb.





## Bu gün və perspektivlər

Azərbaycan və Türkmənistan arasında münasibətlər son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Tarixi, mədəni və etnik yaxınlıq, ortaq türk kökləri, eləcə də



Xəzər hövzəsində yerləşmələri iki ölkə arasında əməkdaşlığın möhkəm təməlini formalaşdırır. Müstəqillik dövründə tərəflər siyasi dialoqu, iqtisadi əlaqələri və regional əməkdaşlığı ardıcıl şəkildə inkişaf etdirib, xüsusilə son illərdə strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlər regionun geosiyasi və geoiqtisadi mənzərəsində mühüm rol oynamağa başlayıb. Hazırda Azərbaycan və Türkmənistan arasında münasibətlər qarşılıqlı hörmət, etimad və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanır. Dövlət başçıları və yüksək səviyyəli rəsmilər arasında intensiv təmaslar siyasi dialoqun davamlı xarakter aldığını göstərir. 2017-ci ildə imzalanmış Strateji Tərəfdaşlığa dair Bəyannamə iki ölkə arasında əməkdaşlığın hüquqi-siyasi əsaslarını daha da möhkəmləndirib.

Azərbaycan–Türkmənistan münasibətlərinin gələcək perspektivləri kifayət qədər genişdir. İlk növbədə enerji əməkdaşlığının daha da dərinləşdirilməsi gözlənilir. Türkmənistanın zəngin təbii qaz ehtiyatları ilə Azərbaycanın enerji infrastrukturu və beynəlxalq enerji layihələrindəki təcrübəsinin birləşdirilməsi hər iki ölkə üçün yeni imkanlar yarada bilər. Xəzər regionunun enerji resurslarının dünya bazarlarına çıxarılmasında tərəflərin əməkdaşlığı strateji əhəmiyyət daşıyır. Nəqliyyat və logistika sahəsində Orta Dəhlizin inkişafı gələcək əməkdaşlığın əsas istiqamətlərindən biri olacaqdır. Bundan əlavə, rəqəmsal iqtisadiyyat, yaşıl enerji, sənaye kooperasiyası və kənd təsərrüfatı sahələrində əməkdaşlıq üçün də geniş potensial mövcuddur. Hər iki ölkənin regional təşkilatlar çərçivəsində, xüsusilə türk dövlətləri arasında əməkdaşlığın inkişafına verdiyi önəm yeni təşəbbüslərin həyata keçirilməsinə şərait yaradır.

Nəticə etibarilə, Azərbaycan və Türkmənistan arasında münasibətlər hazırda yüksələn xətt üzrə inkişaf edir və strateji tərəfdaşlıq xarakteri daşıyır. Siyasi dialoq, enerji əməkdaşlığı, nəqliyyat-logistika layihələri, ticarət əlaqələri və humanitar sahədə əməkdaşlıq iki ölkənin yaxınlaşmasını daha da sürətləndirir. Mövcud potensial və qarşılıqlı siyasi iradə nəzərə alındıqda, Azərbaycan–Türkmənistan münasibətlərinin gələcəkdə daha da genişlənəcəyi, regionda sabitliyin və iqtisadi inkişafın möhkəmlənməsinə mühüm töhfə verəcəyi gözlənilir

## Mehriban qonşuluq və əməkdaşlıq

Türkmənistan-Azərbaycan qardaşlıq əlaqələri daha da güclənir, bir çox sahələrdə uğurla əməkdaşlıq mövcuddur və iki ölkə müstəqil siyasət apararaq gələcəyə inamla baxır. İkitərəfli münasibətləri daha da dərinləşdirmək və inkişaf etdirmək, əldə olunan nailiyyətləri möhkəmləndirmək, yeni layihələrin və istiqamətlərin həyata keçirilməsinə əlavə stimul vermək prioritet məsələlər sırasındadır. Ümumilikdə Türkmənistan-Azərbaycan dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsini xarakterizə edərkən onları üç sözlə ifadə edib: qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq.

Azərbaycanla Türkmənistan möhkəm tarixi bünövrəyə, iki xalqın ortaqlığına və qohumluğuna, bir-birinə qarşılıqlı ehtiyacının olması anlayışına, xalqlarımızın və dövlətlərimizin rifahı, onların əmin-almanlığı və tərəqqisi naminə məcmu siyasi, iqtisadi, resurs potensialından istifadə etməyə hazırdırlar. İki ölkə bu gün xarici siyasətdə, siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə sanballı və geniş əməkdaşlıq gündəliyinə malikdir. Hər iki tərəfin səyləri sayəsində əməkdaşlığımız məqsədyönlülüyü və konkretliyi ilə seçilir, sabit və davamlı xarakter daşıyır, yaxşı dinamika nümayiş etdirir. Bunun əsas, həlledici amili ölkələrimizin liderləri arasında əldə edilmiş ən yüksək səviyyədə qarşılıqlı anlaşma və etimaddır. Bu, bizə ikitərəfli əməkdaşlığın bütün məsələləri üzrə düzgün və vaxtında qərarlar verməyə, əldə olunmuş razılaşmaların həyata keçirilməsini təmin etməyə imkan yaradır.

Türkmənistanla Azərbaycan xarici siyasət sahəsində BMT Nizamnaməsinə və tanınmış beynəlxalq hüquq normalarına riayət etməklə prinsipial və qəti mövqedən çıxış edir. Ölkələrimiz dünyada və qitədə, regional məsələlərdə, Xəzər dənizi zonasında sabitliyin və təhlükəsizliyin təmin edilməsinə mühüm töhfə verir.

## Ortaq maraqlar - Transxəzər

Avropa İttifaqının 2027-ci ilin sonuna qədər Rusiya qazının idxalını tamamilə dayandırmaq niyyəti ilə əlaqədar olaraq, Brüssel Rusiya qazı üçün əvəzləyici tapmağa imkan verəcək bir neçə potensial mənbənin adını çəkir, o cümlədən Azərbaycan və dünyanın ən böyük təbii qaz ehtiyatlarına malik Türkmənistan. Azərbaycan öz qazını Avropaya çatdırmaqda Türkmənistan üçün "qapı" olmağa hazırdır. Əlverişli coğrafi mövqeyi və zəngin təbii sərvətləri ilə Türkmənistan regionun inkişaf etməkdə olan logistika və enerji arxitekturasında ən mühüm mövqe tutmağa çalışır. Xəzər region burada öz təsirini gücləndirmək planlarından əl çəkməyən Qərbin diqqət mərkəzindədir. 2025-ci il may ayının sonunda ABŞ dövlət katibi Marko Rubio Türkmənistan qazını Avropa bazarına çatdırmaq üçün Türkmənistanı Azərbaycanla birləşdirməli olan transxəzər qaz kəmərinin tikintisi layihəsinə ABŞ administrasiyasının dəstəyini bir daha bəyan edib. Vaşinqton Xəzəryanı dövlətlərin Qərb ölkələrinin maraqları sferasında iştirakını artırmalı olan yeni boru kəməri layihələrini irəli sürüb.

Azərbaycan və Türkmənistan arasında mövcud olan münasibətlər tarixi, mədəni və etnik bağlılıqlara əsaslanaraq strateji əməkdaşlıq səviyyəsinə yüksəlib. Bu kontekstdə Türkmənistan Prezidentinin Azərbaycana səfəri xüsusi əhəmiyyət kəsb edir. Sözügedən səfər, təkcə iqtisadi və əməkdaşlıq məsələlərinin deyil, eyni zamanda mədəni, humanitar, elmi və intellektual istiqamətlərin də müzakirə olunduğu çoxtərəfli bir dialoq platforması kimi qiymətləndirilir. Nəticə etibarilə, bu səfər Azərbaycan–Türkmənistan münasibətlərində yeni mərhələnin davamı kimi xarakterizə oluna bilər.

***V.VƏLİLİ***

# 1 trilyonluq müharibə

## İranla ABŞ arasında ən böyük problem etimadsızlıq, ən real həll isə qarşılıqlı güzəştlər və təhlükəsizlik təminatlarıdır

***İran müharibəsi Pentaqona təxminən 40 milyard dollara başa gəlib. Bu barədə Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin (CSIS) təhlilində yazılıb. CSIS-in baş məsləhətçisi Mark Kansian bildirib ki, bu rəqəmə sursat, məhv edilmiş avadanlıq və hərbi bazalara dəyən ziyan daxildir, lakin nazirliyin 2026-cı maliyyə ili büdcəsinə artıq daxil edilmiş və 1 trilyon dolları keçən əməliyyat xərcləri daxil deyil. Xərc yükünün əsas hissəsi Müdafiə Nazirliyinin üzərinə düşüb, lakin hərbi münaqişə Daxili Təhlükəsizlik Nazirliyi və Veteranlar İşləri Nazirliyi kimi digər qurumlara da 1 milyard dollara başa gəlib.***

Sadə amerikalılar üçün müharibənin böyük bir hissəsində benzinin qiyməti ölkə üzrə orta hesabla qallon üçün 3 dollardan az olan qiymətdən 4 dollardan çoxa yüksəlib. Amerikalı ailələr müharibə baş verməsəydi ödəyəcəklərindən 253 dollardan çox xərcləyiblər. Yaxın Şərqdən neft təxminən dörd aydır ki, gəlmir. Dünya müharibə zamanı 1,15 milyard barel neft itirib. Əmək Statistikası Bürosunun son məlumatlarına görə, enerji qiymətlərinin artması səbəbindən illik inflyasiya üç ildə ilk dəfə 4%-i keçib. Qiymətlər hazırda keçən il orta Amerika əmək haqqının artmasından daha sürətli artır. Başqa sözlə, inflyasiya aprel və may aylarında əmək haqqının artımını yeyir - bu, 2023-cü ildən bəri ilk dəfə baş verir. ABŞ və İran nümayəndə heyətləri müharibəyə son qoymaq üçün İsveçrədə bir araya gəliblər. Danışıqlar fonunda ABŞ prezidenti Donald Tramp təhdidlər etməyə başlayıb və İranla razılaşma əldə edilməsə, ABŞ-ın Hörmüz boğazına nəzarəti ələ keçirə biləcəyini bildirib. İrandakı mənbə bildirib ki, Trampın təhdidlərindən sonra ABŞ və İran arasında danışıqlar çıxılmaz vəziyyətə düşüb.



### Danışıqlarda “irəliləyiş”?

İran Xarici İşlər Nazirliyinin verdiyi açıqlamada ABŞ və İran nümayəndə heyətləri yekun razılaşmanın bağlanması üçün danışıqlara hazırlıqları müzakirə etdikləri bildirilib. İran, Qətər və Pakistan İsveçrədə ABŞ ilə danışıqların birinci mərhələsindən sonra irəliləyiş əldə etdiklərini açıqlayıblar. Bu barədə Amerikanın CNN televiziya kanalı İran Xarici İşlər Nazirliyinin sözçüsünə, İran mediasına və vasitəçi ölkələr - Qətər və Pakistanın açıqlamalarına istinadən məlumat verib. İran XİN-in sözçüsü Esmail Baqayi qeyd edib ki, ABŞ və İran nümayəndə heyətləri yekun razılaşmanın bağlanması üçün danışıqlara hazırlıqları müzakirə ediblər. Xüsusilə, onlar İranın dondurulmuş aktivləri və İran neftinin satışına görə sanksiyalardan azadolmaları mövzularına toxunublar. Əlavə edib ki, ”əhəmiyyətli irəliləyiş əldə edilib”.

Baqai qeyd edib ki, ABŞ və İran Hörmüz boğazından gəmilərin təhlükəsiz keçidinin təmin edilməsinin vacibliyi barədə razılığa gəliblər. Vasitəçilər Pakistan və Qətərin birgə bəyanatında bildirilir ki, ABŞ və İran arasında bu yaxınlarda başa çatan danışıqlar ”müsbət və konstruktiv atmosferdə” keçirilib və ”həvəsləndirici irəliləyiş” əldə edilib. Bəyanatda əlavə edilib ki, ABŞ və İran ”vasitəçilik prosesinə siyasi nəzarət” təmin etmək üçün Yüksək Səviyyəli Komitə yaratmaq barədə razılığa gəliblər. Baş danışıqçılar Yüksək Səviyyəli Komitəyə müntəzəm olaraq hesabat verəcək və işçi qruplarına rəhbərlik edəcəklər.

Komitə ”60 gün ərzində yekun razılığa gəlmək üçün yol xəritəsi” barədə razılığa gəlib və əlavə edib ki, ”bütün məsələlər üzrə” texniki danışıqlar bu həftənin sonuna qədər İsveçrədə davam edəcək. Trampın təhdidlərinə İran nümayəndə heyətinin rəhbəri Məhəmməd Qalibaf daha ciddi reaksiya verib və ABŞ-a ”sözlərini seçməyi” məsləhət görüb. Bu, ABŞ prezidenti Donald Trampın iranlıları qəzəbləndirdiyi və incə danışıqları pozduğu ilk dəfə deyil. Amerika televiziya kanalı CNN mənbələrə istinadən verdiyi məlumatda qeyd edir ki, Trampın bazar günü İrana yenidən hücumlarla bağlı qeyri-diplomatik təhdidləri ABŞ vitse-prezidenti J.D. Vance-in Trampın onu ”yeni bir səhifə açmaq və İran xalqı ilə münasibətlərimizi dəyişdirmək” üçün ”diplomatik” missiyaya göndərdiyini bildirməsindən dərhal sonra gəlib. Tramp “İran Livanda artan zorakılığın səbəbkarı olan Hizbullahı ram etməsə, İrana yenidən çox sərt zərbə vuracağıq”, deyə bəyan edib. O, həmçinin İran diplomatlarını Hörmüz boğazını açmasalar, ”lənətə gəlmiş ölkələrə” heç vaxt evlərinə qayıtmayacaqları ilə hədələyib.

### Kimdir haqlı?

Bu suala obyektiv cavab vermək çətindir, çünki tərəflərin hər biri öz təhlükəsizlik və siyasi maraqlarını legitim hesab edir. Daha faydalı yanaşma “niyə qarşıdurma yaranıb?” və “niyə həll olunmur?” suallarına baxmaqdır. İran və ABŞ arasındakı gərginlik yalnız nüvə proqramı ilə bağlı deyil. Əsas səbəblər təhlükəsizlik dilemması, nüvə proqramı, regional nüfuz uğrunda mübarizədir. ABŞ və müttəfiqləri İranın nüvə proqramını, raket arsenalını və regiondakı təsirini təhlükə sayır.

İran isə ABŞ hərbi bazalarını, sanksiyaları və rejim dəyişikliyi ehtimalını öz mövcudluğuna təhlükə kimi görür. Bu, beynəlxalq münasibətlərdə ”təhlükəsizlik dilemması” adlanan vəziyyətdir: hər tərəf özünü müdafiə etdiyini düşünür, qarşı tərəf isə bunu hücum hazırlığı kimi qəbul edir. Qərb İranın nüvə silahına yaxınlaşdığını düşünür. İran isə proqramın dinc məqsədli olduğunu bildirir və nüvə texnologiyasını suveren hüququ hesab edir. İran özünü Yaxın Şərqdə müstəqil güc mərkəzi kimi təqdim edir. ABŞ, İsrail və bəzi Körfəz ölkələri isə İranın regional təsirinin məhdudlaşdırılmasını istəyir.

### Rusiya hansı roldadır: katalizator, yoxsa tərəfdaş?

Rusiyanı qarşıdurmanın əsas səbəbi adlandırmaq çətindir, amma o, müəyyən mənada katalizator rolunu oynayır. Rusiyanın maraqlarından biri və birincisi ABŞ-ın diqqətinin bir hissəsini Yaxın Şərqə yönəltməkdir. İkinci səbəb Qərb blokunun resurslarının bölünməsidir. Üçüncüsü, İranla enerji, hərbi və ticarət əməkdaşlığının güclənməsi və sanksiyalar altında olan iki ölkənin bir-birinə dayaq olmasıdır. Amma Moskva da tammiqyaslı İran-Qərb müharibəsində maraqlı deyil. Çünki regionda xaos Rusiyanın öz iqtisadi maraqlarına da zərər vurur. Enerji qiymətlərinin həddindən artıq dəyişməsi qeyri-müəyyənlik yaradır. Rusiya bir neçə cəbhədə eyni vaxtda qarşıdurma istəmir. Bu səbəbdən Rusiyanın siyasəti daha çox ”gərginliyi idarə etmək” xarakteri daşıyır, nəinki onu sonsuz artırmaq.

Bəs kompromisə kim mane olur? Əslində bir nəfər və ya bir dövlət yox. Maneələr bir neçə səviyyədədir. Birincisi, qarşılıqlı etimadsızlıqdır. İran rəhbərliyi düşünür ki, güzəşt yeni təzyiqlərə gətirib çıxaracaq. ABŞ-da isə çoxları hesab edir ki, İran vaxt qazanmaq üçün danışıqlardan istifadə edir.

İkincisi, daxili siyasi qüvvələrdir. Həm Vaşinqtonda, həm də Tehranda kompromisə qarşı çıxan qruplar mövcuddur. İran daxilində sərt xətt tərəfdarları, ABŞ-da və regionda İranın güclənməsini təhlükə hesab edən dairələr.

Üçüncüsü, regional oyunçulardır. İsrail, Körfəz ölkələri, Türkiyə, Rusiya və Çin kimi aktorların da öz təhlükəsizlik və iqtisadi maraqları var. Bu maraqlar hər zaman üst-üstə düşmür. Bəs, çıxış yolu nə ola bilər? Tarixi təcrübə göstərir ki, tam qələbə modeli işləmir. Ən real variant isə İranın nüvə fəaliyyətinə beynəlxalq nəzarətin gücləndirilməsi, sanksiyaların mərhələli yumşaldılması, regional təhlükəsizlik mexanizmlərinin qurulması, ABŞ, İran, Körfəz ölkələri və digər regional güclərin iştirak etdiyi uzunmüddətli təhlükəsizlik dialoqudur. Əgər məsələni geosiyasi baxımdan qiymətləndirsək, burada ”yaxşı” və ”pis” tərəf deyil, bir-birini təhlükə kimi görən güclər mövcuddur. İran təhlükəsizlik və suverenlik iddiası ilə hərəkət edir. ABŞ və müttəfiqləri isə İranın potensial güclənməsini risk hesab edir. Rusiya və Çin bu qarşıdurmadan müəyyən strateji üstünlüklər əldə edə bilsələr də, onlar da tammiqyaslı regional müharibədə maraqlı deyillər. Ən böyük problem etimadsızlıqdır, ən real həll isə qarşılıqlı güzəştlər və təhlükəsizlik təminatlarıdır.

***VƏLİ***

# Tramp öz şərtlərini diktə edir - yumruqlu təhdid sülh deyil...

## Mətləb Salahov: “Bu mənzərə beynəlxalq hüquq sistemində diplomatiyanın güc və hədə ilə əvəzləndiyini göstərir”



“Hazırda ABŞ-İran danışıqlarını açıq-aşkar birtərəfli yumruq hədəsi ilə hansısa sənədə qol çəkdirmək cəhdi adlandırmaq olar. Çünki Ağ Evin iranlılardan tələbi Donald Tramp Administrasiyasının hazırladığı və birbaşa milyarder ABŞ rəhbərinin ticarət maraqlarına xidmət edən sənədə imza atmalarıdır. Əgər belə olmasaydı, dünən gecə iranlılar azı iki dəfə danışıqlar masasını tərk etməyə məcbur olmazdılar. Bu mənzərə beynəlxalq hüquq sistemində diplomatiyanın güc və hədə ilə əvəzləndiyini göstərir. Məsələ təkcə İranla bağlı deyil. ABŞ Administrasiyası artıq digər ölkələrə də eyni münasibəti sərgiləyir. Bu isə qətiyyən real və davamlı sülhə aparmır”.

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. M.Salahov diqqətə çatdırıb ki, ABŞ-İran danışıqlarının bərpası barədə Qətər və Pakistan dövlətinin birgə bəyanatında yekin sənədin 60 gün ərzində imzalanacağı deyilsə də, bu, konkret reallığa əsaslanmır. “Çünki D.Tramp siyasi deyil, sırf ticarət maraqları üçün mənasız bir müharibəyə baş qoşdu. Hətta təhrik edildi. Elə bir müharibə ki, nəticələri belə nəzərə alınmadı. Hazırda bütün dünya Hörmüz boğazındakı blokadaya görə dəhşətli şəkildə əziyyət çəkir, ticarət və qiymət baxımından milyonlarla insan acınacaqlı vəziyyətdədir. Lakin bunlar D.Trampı qətiyyən narahat etmir. O yalnız yumruq gücünə “sülh” yaratmağa çalışır. Bu isə uzun zaman davam edə bilməz”.

***Afət Tahirqızı***

# “Azərbaycan ordusu müstəqilliyimizin əsas təminatçısıdır”

“26 İyun - Silahlı Qüvvələr Günü Azərbaycan dövlətinin müstəqillik tarixində xüsusi əhəmiyyət daşıyan günlərdən biridir. Bu tarix yalnız hərbi bayram deyil, həm də Azərbaycan dövlətçiliyinin gücünü, milli təhlükəsizlik strategiyasının uğurunu və müstəqilliyimizin etibarlı təminatçısı olan ordumuzun keçdiyi şərəfli yolu ifadə edir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tural İsmayılov deyib. Onun sözlərinə görə, məhz 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ilk nizami hərbi hissələrin yaradılması ilə milli ordu quruculuğunun təməli qoyulub: ”Müstəqilliyin bərpasından sonra isə Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi ardıcıl siyasət nəticəsində Azərbaycan Ordusu pərakəndə silahlı dəstələrdən müasir və peşəkar hərbi quruma çevrilib.




Son illər ərzində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun inkişafı yeni mərhələyə qədəm qoyub. Ordunun maddi-texniki bazasının gücləndirilməsi, ən müasir silah və texnologiyalarla təchiz olunması, peşəkar kadr hazırlığı sisteminin təkmilləşdirilməsi və müdafiə sənayesinin inkişafı ölkəmizin hərbi potensialını əhəmiyyətli dərəcədə artırıb. Bu siyasətin nəticələri xüsusilə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilən lokal antiterror tədbirlərində özünü aydın şəkildə göstərdi. Azərbaycan Ordusu yüksək peşəkarlıq, güclü koordinasiya və müasir döyüş qabiliyyəti nümayiş etdirərək ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasını təmin etdi.

Bu gün Azərbaycan Ordusu regionun ən güclü hərbi qüvvələrindən biri hesab olunur. Ordumuzun qazandığı uğurlar yalnız hərbi sahədə deyil, həm də siyasi və diplomatik müstəvidə Azərbaycanın mövqelərini gücləndirib. Güclü ordu faktoru ölkənin milli maraqlarının qorunmasında, regional təhlükəsizliyin təmin edilməsində və Azərbaycanın beynəlxalq nüfuzunun artırılmasında mühüm rol oynayır. Müasir beynəlxalq münasibətlər sistemində hərbi güc dövlətlərin strateji imkanlarını müəyyən edən əsas amillərdən biri olaraq qalır və Azərbaycan bu istiqamətdə mühüm nailiyyətlər əldə edib.

26 İyun münasibətilə Azərbaycan Ordusunun bütün şəxsi heyətini, veteranları və hərbi xidmətçilərini təbrik edir, Silahlı Qüvvələrimizin ölkəmizin təhlükəsizliyi, sabitliyi və inkişafı naminə bundan sonra da böyük uğurlara imza atacağına əminliyimizi ifadə edirik. Güclü dövlət, güclü ordu prinsipi bu gün də Azərbaycanın strateji inkişaf xəttinin əsas prioritetlərindən biri olaraq qalır. Azərbaycan Ordusu müstəqilliyimizin, suverenliyimizin və milli birliyimizin ən etibarlı təminatçısıdır”.

*Günel Fərzəliyeva*

# Borcla bağlı yazılı sübutlar əsas götürüləcək?

## HÜQUQŞÜNAS AÇIQLADI

Konstitusiya Məhkəməsi fiziki şəxslər arasında borc müqavilələri ilə bağlı qərarında bildirib ki, qanunvericiliyə dəyişiklik edilənədək belə müqavilələrin və onların şərtlərinin müxtəlif yazılı sübutlarla təsdiqlənməsi mümkün olmalıdır. Yeni qərarlar hansı dəyişikliklərə səbəb ola bilər? Məsələ ilə bağlı hüquqşünas Əkrəm Həsənov SİA-ya açıqlamasında bildirib ki, tərəflər arasında müqavilə həm yazılı, həm də şifahi formada bağlana bilər və çox vaxt insanlarımız bunu bilmirlər: ”Halbuki onlar hər gün şifahi müqavilələr bağlayırlar. Məsələn, hansısa mağazadan alış-veriş edəndə şifahi alqı-satqı müqaviləsi bağlayırlar. Onlar ictimai nəqliyyatdan, taksidən və ya metrodan istifadə edəndə də şifahi şəkildə nəqliyyat müqaviləsi bağlayırlar. Həmin müqaviləni təsdiq edən sənəd isə sadəcə çek və ya biletdir. Amma müqavilənin şərtləri ayrıca heç bir yerdə göstərilmir. Mülki Məcəllənin 739-cu maddəsində göstərilir ki, fiziki şəxslər arasında bağlanan borc müqaviləsinin məbləği 3 000 manatdan çox olduqda həmin müqavilə yazılı formada bağlanmalıdır. Son dövrlərdə bu məsələ məhkəmə təcrübəsində müəyyən problemlərə səbəb olmuşdu. Bəzi hakimlər hesab edirdilər ki, əgər 3 000 manatdan artıq məbləğdə borc müqaviləsi şifahi şəkildə bağlanıbsa, belə müqavilə etibarsız sayılmalıdır. Lakin bu yanaşma düzgün deyil. Tutaq ki, şəxs pulu verib və bunu başqa vasitələrlə sübut edə bilir. Məsələn, tərəflər arasında müqavilə olmasa da, telefon və ya WhatsApp yazışmaları, audio qeydlər və digər sübutlar mövcuddur. Bu halda borcun verilməsi faktı sübuta yetirilə bilər.





Ali Məhkəmənin 16 iyun 2026-cı il tarixli qərarında da mövqe belədir ki, 3 000 manat həddi müqavilənin etibarlılığına deyil, onun sübut edilməsinə aiddir. Yəni 3 min manatdan artıq məbləğdə borc verilərkən də şifahi müqavilə bağlana bilər. Sadəcə, belə hallarda borcun mövcudluğu şahid ifadələri ilə deyil, digər sübutlarla təsdiqlənməlidir. Başqa sözlə, kimsə gəlib yalnız şahid ifadəsinə əsaslanaraq ”mən şahidəm ki, filankəs filankəsdən 10 000 manat borc alıb” deyə bilməz. Yazılı və ya digər etibarlı sübutlar olmalıdır. Məsələn, WhatsApp yazışmaları, audio qeydlər və ya həmin şəxsin borcu etiraf etməsi belə sübutlar hesab edilə bilər. Mən hesab edirəm ki, Ali Məhkəmənin bu qərarı tamamilə düzgündür. Çünki praktikada vətəndaşlar qohumlarına, qonşularına və ya tanışlarına 5 min, 10 min manat, bəzən isə daha artıq məbləğdə borc verərkən çox vaxt yazılı müqavilə bağlamırlar. 3 min manatdan aşağı məbləğlərə gəldikdə isə vəziyyət fərqlidir. Belə hallarda şahid ifadələri də sübut kimi qəbul oluna bilər. Məsələn, mən 3 min manatdan az məbləğdə borc vermişəmsə və bunu görən dost və ya tanış məhkəmədə ifadə verirsə, həmin şahid ifadəsi nəzərə alına bilər. Amma 3 min manatdan yuxarı məbləğlərdə yalnız şahid ifadələri kifayət etmir. Çünki əks halda insanlar bir-birinin xeyrinə əsassız şahidlik edə və istənilən məbləğdə borc münasibətinin mövcud olduğunu iddia edə bilərlər. Məhz buna görə qanunvericilik bu hallarda daha etibarlı sübutların təqdim edilməsini tələb edir”.

*Arzu Qurbanlı*



MƏTANƏT

# “Kurmanci here gule”: Allah xətrinə, ta “vere”!

Əslində sosial şəbəkələrin bir tərəfi də ona görə yaxşıdır ki, hər hansı bir statistikanı aparmaqda real köməkçidir. Məsələn, sosial şəbəkə platformaları imkan verir ki, insanların daha çox nəyə maraq etdiyi asanlıqla təyin edilə bilsin: bu insanlar kitab, yoxsa mahnı oxumağamı, rəqs, yoxsa səyahət etməyəmi maraqlıdırlar və yaxud vaxt amilindən necə istifadə edirlər, bax, bunu rəqəmsal platformalar açıqca ortaya qoyur.

Xeyli vaxtdır, sosial şəbəkələri zəbt edən ”Kurmanci here gule”, yəni ”get, əzizim, gülüm”, mənasını verən mahnı ilə bir daha təsdiq olundu ki, insanlar hazırda kitab deyil, mahnı oxumağa, rəqs etməyə, bununla eyni zamanda həyat tərzini, evini, səyahət etdiyi yerləri reklam etməyə daha çox meyillidirlər. Hətta bu mahnı ilə videoların çəkilişinə uşaqların belə cəlb edilməsi, it və pişiklərin də bu mahnı ilə rəqsinin süni intellek vasitəsilə hazırlanması insan olan varlığın maraq dairəsinin genişliyindən bir daha söhbət açır.

Artıq yorucu oldu desəm, mənimlə razılaşan yüzlərlə insanın olduğundan elə yüz faiz əminəm. Çünki hərdən nəzər saldığım video rəylərinə əsasən bunu söyləyə bilirəm. Yorucu oldu, deyirəm. Nə üçün? Bu barədə danışaq.

Bəlkə də artıq iki ayı ötür ki, ”Kurmanci here gule” sosial həyatımızı zəbt edib. İlk dinlədikdə melodiyası inanmıram ki, kiməsə yaxşı təsir bağışlamasın. Mən bəyəndim. İnsanda xoş hisslər yaradır bu melodiya. Lakin saysız video ilə ”get əzizim, get gülüm”ü paylaşanlar, necə deyərlər, mahnının suyunu elə sıxıb çıxardılar ki, yerində skeleti qaldı. Beləliklə, əvvəl xoşumuza gələn bu mahnı yavaş-yavaş əsəb sistemimizə musiqili zərbələr endirməyə başladı.

Bloger ər-arvad var, yəqin tanımayan az adam olar. Onlar bu mahnı ilə desəm ki, 10-dan artıq video çəkiblər, haqlısınız deməyə ki, yox, azdır. Ər-arvad özlərini, uşaqlarını, evlərini, hətta yataq otaqlarını, səyahətlərini də bu mahnı ilə paylaşdılar. Ta bu qədər də yox da... İnsanları da bir düşünmək lazımdır axı. Onlar eyni adamları nə qədər eyni musiqi sədaları altında görməlidir?

Çoxsaylı gənc qız, ortayaşlı qadın bu mahnını sanki özləri oxuyurmuş kimi videolar çəkdilər, əcəb etdilər, öz işləridir, nə demək olar?.. Bu mahnı ilə yemək bişirən kim, səyahət edən kim, rəqs edib arxasını bizə göstərən kim, maşınını reklam edən kim, uşağını sosial şəbəkələrə fəda edən kim, dəniz kənarından dəniz paltarında yarıçılpaq bədənini göstərən kim, aşırı kilolara sahib bədənini silkələyən kim, kollektiv şəkildə idman edən kim, canlı açıb duet oxuyan kim, təbiət mənzərələri paylaşan kim, uşaqları yaşına uyğun olmayan vəziyyətə salan kim, göbəyini, sinəsini oynadan kim, süni intellektlə mahnını dünya məşhurlarına oxutduran kim, öz xalqına məxsus milli paltarı geyinib bu mahniya video çəkdirən kim, yaşlı valideynlərini, nənə-babasını bu havaya oynadan kim, yaşadığı şəhəri paylaşan kim, xəyala gedən kim, bir-birinə naz edən kim, bədənini bildiyi kimi o tərəf-bu tərəfə əyən kim, siqaret damağında fikirləşən kim, sadəcə dodaqlarını çəkib paylaşan kim, dolğu, botoksunu nümayiş etdirən kim, özünü öyən kim...

Bütün bunlar ”Kurmanci here gule” ilə çəkilən videoların çox az bir hissəsidir ki, sadaladım. Onları saymaq üçün günlər lazımdır. Çünki dünyanın hər yerində sanki insanlar bu mahnıya valeh olublar. Çək-çək, paylaş, doymaq, yorulmaq bilmirlər.

Bir sözlə, artıq mənim fikrimdə olanlar da var ki, ta bəsdir, yorulduq bu mahnı ilə çəkilən oxşar videolardan. Lakin nə fayda, elə çəkən çəkənədir. İnsanlar hələ ki, doymaq bilmirlər.

Maraqlı deyilmi? Həqiqətən də sosial platformalar insan övladının nəyə daha çox meyl etdiyini ortaya qoymurmu? Onların bir-biri ilə bəhs etməsini, bir-birinə bənzəmək istəyini, ”o etdi, mən niyə etməyim” kimi düşüncələrini necə də açıqca hər kəsə göstərir. Hələ bəzən də utanmaq hissinin itdiyini, insanların marağının səviyyəsini, vaxtın qızıl qiymətində olduğu dövrdə ondan necə faydalandıqlarını də sübut edir. Bu ”trendə” bizim ölkəmizdə də qoşulanlar yetərli qədər oldu. Onları da mütəlif şəkillərdə seyr etmək məcburiyyətində qaldıq. Qaldıqca da, yenə də düşüncələrə daldıq.

Bəzən düşünürəm: ”Kurmanci here gule”-get, əzizim, gülüm, deyil, ”Kurmanci vere gule”-gəl, əzizim, gülüm, olsaydı, necə, fərq nə olardı? Özüm öz sualıma belə cavab verirəm: məgər çoxsaylı insan bu mahnının sözlərində nə deyildiyinə bircə dəfə də olsun, nəzər salıb? Onları maraqlandıran mahnının ritmidir. Ki, bu ritm yüzlərlə insanın sümüyünə elə düşdü ki, hansı havaya oynadıqlarının fərqində belə olmadılar. Hə, onu da deyim, mənim fikrimcə, ”Kurmanci here gule” ni gərək əvvəldən ”Kurmanci vere gule” edərdilər. Heç olmasa, bilərdik ki, insanlar bir-birini qovmağa deyil, qucaqlamağa rəqs edirlər...

# Gənclərə örnək Mübariz İBRAHİMOV

44 günlük Vətən müharibəsində xalqımıza Zəfər tarixini yaşadan oğullarımız Qələbə tariximizi bizimlə qeyd etməsələr də, qalib xalqın övladı kimi məzarlarında rahat nəfəs alırlar. Bu gün Azərbaycanın müstəqilliyi, ərazi bütölüyü yolunda şəhid olmuş vətən övladlarının hər birinin qəhrəmanlıq tarixi dildən-dilə düşərək sanki əfsanəyə çevrilib. Elə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov kimi. Milyonların ürəyində heykəlini ucaldan xalqımızın Mübariz oğlu. Hər zaman xalqın yaddaşında, qəlbində olan bir qəhrəman. Gənclərə örnək, torpağımıza ucalıq gətirən Mübariz. Vətən ucalığı, vətən sevgisi onun ömür yolunu yarımçıq qoydu. Qəhəmanlıq zirəsinə yüksəltdi. Heç vaxt zirvədən enməyəcək bir yüksəklikdə özünün əbədi məşəlini yandırdı - şəhidlik zirvəsinə yüksəldi. Özü də 22 yaşında. 22 bahar yaşamış bir insan üçün işıqlı ömür yolları olduğu halda seçimində qərarlı oldu. Hər dəfə işğal tariximizlə bağlı bir söz eşidəndə düşmənə qarşı nifrəti daha da artır. Deyirlər vətənpərvərlik ana laylalarından başlayır. Körpə böyüdükcə onun torpağa, elə-obaya bağlılığı yoğrulduğu ana laylalarından kök atmağa başlayır. Sonralar vətənə, doğma torpağa məhəbbət nağıllarımızdan, dastanlarımızdan, atalar sözlərindən əxz olunmağa başlayır. Vətənlə bağlı düşüncələri, vətənpərvərlik tərbiyəsi, vətəni sevmək kimi ali dəyərlər Mübarizi qəhrəman kimi yetişdirir - ərən, igid, mübariz. 22 yaşlı bir gəncin düşmənlə üz-üzə gələrək, qisası qiyamətə qoymaması onun ruhi, əqli, mənəvi dünyasında hökmranlıq edən Vətən sevgisindən köklənmişdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın mənfur qonşumuz Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə milli çağdaş tariximizə şanlı səhifə yazdı. Çağdaş tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu hərbi əməliyyat nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi. Minlərlə vətən oğlu şəhidlik zirvəsinə yüksəldi. Bu zirvəyə yüksəlmək hər kəsə nəsb olmur. Torpaq yolunda can fəda etmək, bu torpağın vətəndaşı olaraq onun yaddaşına hopmaq, qanı ilə vətən torpağına can vermək böyük hünər, qəhrəmanlıq, şücaətdir. Hər dəfə onun qısa, lakin neçə-neçə onilliklərə bərabər bir ömür yaşadığını görürük. Əsrlərə dastan olacaq bir ömür yaşadı. Neçə-neçə əsrlər bu əfsanəyə çevrilmiş ömür yolundan yazılacaq, qəhrəmanlığı dildən-dilə dolaşacaq. 1988-ci ilin 7 fevral tarixində Biləsuvar rayonunun Əliabad kəndində anadan olan Mübariz bir kəndin, bir rayonun yox, bütün türk dünyasının övladına çevrildi. Qısa ömürdən sətirlər oxuyuruq. 1994-cü ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub. Həmin il həqiqi hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub. Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət edib. Bu yola qədər uşaqlıq və gənclik illərinin ilk illərində baş verən hadisələr onun yaddaşına elə həkk olur ki, o düşməndən intiqam almaq hissi ilə yaşayır. Mübariz Qarabağ müharibəsi ilə həmyaşıd idi.



## SON MƏKTUB

19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Belə bir qətiyyətli addımı atarkən ailəsinə son məktubunu yazmağı şübhəsiz ki, özünə borc bilir: "Canım atam və anam. Məndən ötrü darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin". Bu hallallıqdan sonra qəhrəmanlığa doğru addımlarını atır. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarından özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Bu şəhidlik bütün Azərbaycana, dünya ölkələrinə işıq sürəti ilə yayılır. Atası Ağakərim İbrahimov belə deyir: "Hadisənin səhəri günü tezdən saat 5-6 arasında mənə zəng gəldi. Soruşdular ki, oğlunuz evə gəlməyib ki? Hətta bildirdilər ki, çoxlu silah götürüb və ərazidən uzaqlaşıb. Dedim, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin. Sonra da məktubunu tapmışdılar..."

## ƏFSANƏLƏŞƏN FİLMİN QƏHRƏMANI

Hər kəs yaxşı xatırlayır. Rusiya prezidenti Vladimir Putinin Azərbaycanda yeni Rembo peyda olub, deyə bildirmişdi: "Mən çox qəribə və maraqlı məlumat almışam. Bir gecə silahlanıb təkbaşına erməni ordusuna qarşı hücuma keçərək 135 nəfər erməni əsgər və zabitini qanına qəltan edib. Əgər rəsmi məlumat olmasaydı, mən bu xəbərə inanmazdım. Çünki biz bu cür igidlikləri kinolarda görmüşük. Rembo kinoda 200 nəfərdən çox adam öldürəndə, deyirsən ki, bu fantastikadır. Həqiqətən də bu fantastikaya oxşayır. Axı, necə ola bilər ki, bir nəfər silahlı 200 nəfər silahlıya atəş açır, 200 nəfərin atdığı atəş isə bu bir nəfərə dəymir, həmin bir nəfər isə sərrast atəşlə hamısını yerə sərir. Bu heç cür ağılabatan deyil. Deməli, Rembo təkcə kinoda deyil, həyatda da var."

Bu əfsanələşən bir filmin qəhrəmanı bizim Mübarizdir. Azərbaycanlı Mübariz. Dünyaya, ən əsası da erməniyə Azərbaycan gücünü, Azərbaycan oğlunun belə bir cəsarətini, qəhrəmanlığını göstərdi. Fəxrimiz, Fəxarətimiz MÜBARİZ. Belə bir şəhidlik, qəhrəmanlıq hər həsə nəsib olmur. Bunu Azərbaycan torpağının yetirdiyi Mübariz İbrahimov göstərdi! Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı Mübariz İbrahimov. Hər vaxt üçrəngli bayrağını uca tutan cəsur oğullar millətimizin qürur mənbəyidir.

Azərbaycanda saxta qəhrəmanlar olmur. Bugünki dünyada bütün arxiv sənədlərinin aşkar şəkildə olması, həqiqətlərin dünyaya çatdırılması, ağı qaradan seçməyə imkan yaradıb. Təbii ki, heç kəs anadan qəhrəman doğulmur. Onu yaşadığı zaman, doğulduğu torpaq, vətənpərvərlik ruhu yetişdirir. Ermənilərə dərs verən Mübariz İbrahimovun cəsədini Ermənistan 141 gün saxlamışdır. Ermənilər İbrahimovun cəsədinin şəkillərini internet saytlarında yayımlamışdır. Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm danışıqların nəticəsində, İbrahimovun meyidi 6 noyabr 2010-cu il tarixdə Ağdam-Bərdə yolunun üzərində, işğal altındakı Baş Qərvənd kəndi yaxınlığında Ermənistan tərəfdən alınmışdır. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Azərbaycan Respublikası Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilmişdir. 2010-cu il noyabrın 7-də Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən vida mərasiminə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edərək, nitq söyləmişdir. Bizim qəhrəman İkinci Fəxri xiyabanda dəfn olunmuşdur.

## XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLDİ

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adının (ölümündən sonra) verilməsi barədə Sərəncam imzalayıb. Prezidentin başqa bir Sərəncamı ilə Milli Qəhrəman Mübariz Ağakərim oğlu İbrahimovun xatirəsini əbədiləşdirmək məqsədilə Biləsuvar rayonunun orta məktəblərindən birinə Mübariz İbrahimovun adı verilib. Biləsuvar rayonunda küçələrdən biri Mübariz İbrahimovun adını daşıyır. 2008-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılıb. Qardaş Türkiyə də tədbir, film və seriallarında Azərbaycan qəhrəmanı Mübariz İbrahimovun adını sonsuz hörmət və məhəbbətlə yada salıb və salır. Onun qəhrəmanlığı TRT 1 kanalında nümayiş olunan "Qızıl Alma" serialında geniş yer alıb. Mübariz İbrahimovun adını daşıyan gəmi 2010-cu ilin oktyabr ayının 15-də Türkiyədə "Beşiktaş" gəmiqayırma zavodundan suya endirilib. Türkiyədə suya endirilmiş bu gəmi hazırda Milli Qəhrəman Mübariz İbrahimovun adını dünya sularında tanıdır.

2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimov adına xatirə lövhəsi vurulub. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. Mübariz İbrahimova həsr edilən "Müqəddəs zirvə" adlı film çəkilib. Nə qədər onun haqqında yazılsa da, yenə də Mübarizlə bağlı olan fikirlərə, sözə nöqtə qoyulmur. Hər tərəfdən Mübariz işığı görünür, Azərbaycanı şölələndirir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın milli maraqları naminə hərbi əməkdaşlığı

Ölkəmizin milli maraqlarının qorunması və dövlət təhlükəsizliyinin təmin edilməsi xarici və müdafiə siyasətinin əsas istiqamətlərindən biridir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan mürəkkəb geosiyasi regionda yerləşdiyini nəzərə alaraq beynəlxalq hərbi əməkdaşlığın inkişafına xüsusi diqqət yetirmişdir. Bu əməkdaşlıq ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, Silahlı Qüvvələrin modernləşdirilməsi, regional təhlükəsizliyin təmin olunması və milli maraqların beynəlxalq müstəvidə qorunmasına xidmət edir. Azərbaycanın hərbi əməkdaşlıq siyasəti dövlətin milli maraqlarına, müdafiə strategiyasına və xarici siyasət kursuna uyğun şəkildə həyata keçirilir. Bu siyasətin əsas məqsədi ölkənin suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini etibarlı şəkildə qorumaq, eyni zamanda regionda sülh və sabitliyin möhkəmlənməsinə töhfə verməkdir. Azərbaycanın beynəlxalq hərbi əməkdaşlığı həm ikitərəfli, həm də çoxtərəfli formatlarda həyata keçirilir və müxtəlif ölkələri,



***Sevinc Həsənova***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

beynəlxalq təşkilatları əhatə edir.

Milli maraqlarımız naminə həyata keçirilən hərbi əməkdaşlığın mühüm istiqamətlərindən biridə qardaş Türkiyə ilə qurulan əlaqələrdir. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı ordunun döyüş hazırlığının artırılmasında, peşəkar hərbi kadrların yetişdirilməsində və müasir hərbi idarəetmə sistemlərinin tətbiqində mühüm rol oynayır. Birgə hərbi təlimlər, təcrübə mübadiləsi və müdafiə sənayesi sahəsində əməkdaşlıq Azərbaycan Ordusunun güclənməsinə əhəmiyyətli töhfələr verir. Bununla yanaşı, Azərbaycan NATO ilə tərəfdaşlıq çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirir. Bu əməkdaşlıq orduda müasir standartların tətbiqinə, hərbi təhsil sisteminin təkmilləşdirilməsinə və sülhməramlı fəaliyyətlərin genişləndirilməsinə imkan yaratmışdır. NATO proqramları vasitəsilə Azərbaycan Silahlı Qüvvələri beynəlxalq təcrübədən faydalanaraq öz peşəkarlıq səviyyəsini daha da yüksəltmişdir.

Azərbaycanın beynəlxalq hərbi əməkdaşlığının digər mühüm istiqamətlərindən biri təhlükəsizlik sahəsində yeni çağırışlara qarşı birgə fəaliyyətin təşkil edilməsidir. Terrorizmə qarşı mübarizə, kiber təhlükəsizlik, informasiya təhlükəsizliyi, enerji infrastrukturlarının mühafizəsi və xüsusi əməliyyat qabiliyyətlərinin inkişaf etdirilməsi müasir əməkdaşlığın əsas sahələri sırasındadır. Bu istiqamətdə həyata keçirilən tədbirlər ölkənin milli təhlükəsizliyinin möhkəmləndirilməsinə və mümkün təhdidlərin qarşısının alınmasına xidmət edir. Hərbi əməkdaşlıq həmçinin Azərbaycan Ordusunun texniki və texnoloji imkanlarının artırılmasına şərait yaradır. Müasir silah və hərbi texnikaların əldə olunması, müdafiə sənayesinin inkişaf etdirilməsi, hərbi innovasiyaların tətbiqi və qabaqcıl təcrübələrin öyrənilməsi ordunun döyüş qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Bu proses ölkənin müdafiə potensialının davamlı şəkildə gücləndirilməsinə imkan verir.

44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən sonra Azərbaycanın beynəlxalq hərbi əməkdaşlığı yeni mərhələyə qədəm qoymuşdur. Postmüharibə dövründə ölkə öz hərbi potensialını daha da möhkəmləndirmək, regionda təhlükəsizlik və sabitliyi təmin etmək məqsədilə tərəfdaş dövlətlərlə əməkdaşlığı genişləndirmişdir. Bu əməkdaşlıq Azərbaycanın regional lider mövqeyinin güclənməsinə və beynəlxalq nüfuzunun artmasına mühüm təsir göstərir.

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən müdafiə və təhlükəsizlik siyasəti nəticəsində Azərbaycan bu gün regionun ən güclü ordularından birinə malikdir. Beynəlxalq hərbi əməkdaşlıq ölkənin milli maraqlarının müdafiəsində, dövlət təhlükəsizliyinin təmin edilməsində və Silahlı Qüvvələrin inkişafında mühüm rol oynamaqda davam edir. Azərbaycan bundan sonra da qarşılıqlı fayda, etibarlı tərəfdaşlıq və milli maraqlar prinsipləri əsasında beynəlxalq hərbi əlaqələrini daha da genişləndirəcəkdir.

# Qlobal istiləşməni yavaşlatmaq mümkündür



Okean buzu sürətlə əriyir və iqlim böhranını daha da pisləşdirir, lakin buzu yenidən qalınlaşdırmaq üçün həyata keçirilən cəsarətli addımlar bu addımın uğurlu ola biləcəyini göstərdi. Bu Böyük Britaniya hökuməti tərəfindən maliyyələşdirilən "Real Ice" şirkəti tərəfindən aparılan geomühəndislik təcrübəsinin nəticəsində bəlli olub.

Kanadanın şimalındakı Kembric körfəzindəki İnuit şəhərindən cəmi 4 mil məsafədə qar arabası ilə Arktika dəniz buzunun üzərində dayanan layihə icraçısı Andrea Ceccolini bildirir ki, sol tərəfində son bir neçə gündə yüksək şimal yayında artıq batmayan günəşin yaratdığı ərimiş su gölməçələri var. Sağ tərəfində isə dəniz buzu hələ də parlaq ağ rəngdədir, üstündəki yüngül qar tozu parıldamağa davam edir və qalınlığını itirməyib.Sərhəd inanılmaz dərəcədə fərqlidir - deyə o bildirir.

Beş ay əvvəl komanda dəniz buzunda -40C temperatura tab gətirərək quyular qazıb 50.000 ton okean suyunu səthinə çıxarmışdı. Yeni ölçmələrə görə, buz demək olar ki, dərhal donub və 1,5 metr dərinliyindəki buzu təxminən 50 sm qalınlaşdırıb. Bu, ərimə mövsümünün əvvəlində buzları qoruyub saxlayıb və bir gün, bəlkə də, Arktikanın əhəmiyyətli bir hissəsinin yenidən dondurulmasının mümkün ola biləcəyinə dair ilkin əlamətdir.

Buz günəş istiliyinin 70%-ni kosmosa əks etdirir, açıq okean isə yalnız 7%-ni əks etdirir. Ərimə dənizi nə qədər çox açırsa, temperatur o qədər istiləşir və ərimə prosesi bir o qədər çox olur. Yay dəniz buzları 2030-cu illərin əvvəllərində yox ola bilər və alimlər istiliyin artmasının iqlimi fəlakətli ola biləcəyindən narahatdırlar.

Buzda işləyən komanda əllərindən gələn hər xırdalığı ölçməklə məşğuldur: buzun hər 2 sm-də temperaturu, duzluluq üçün uzun nüvələri, buz quruluşunu və bioloji analizi və ən əsası, yenidən buzladıqları ərazinin nə qədər əks etdirici olduğunu.

Mavi səmaya və güclü günəşə baxmayaraq, külək sayəsində buzun üzəri hələ də soyuqdur. "Qışda işləmək daha çətindir, ən soyuq gün -63C idi və külək insanı kəsirdi", - deyə "Real Ice"in həmtəsisçiləri C?an Sherwin ilə Simon Woods bildirir. Həddindən artıq aşağı temperatur komandanı dondura bilərdi, onlar -40C temperaturda işləyir, donma əlamətləri olma bilmə ehtimalına qarşı bir-birlərini diqqətlə izləyirdilər".

Bu ilin yanvar və fevral aylarında nasoslar ümumilikdə 1080 saat işləyib və yan tərəfdə təxminən 450 metrlik kvadrat sahəni buzla doldurub. Kiçik nasoslar mətbəx tosterindən daha az enerji tələb edir, çünki onlar suyu buzun altından yalnız üstünə qaldırırlar.

Nəticələri indi kosmosdan görmək mümkündür və komanda üzvləri sınaq sahəsinin ərimə mövsümü başladıqdan bir neçə gün sonra mavi dənizdə ağ bir ada kimi göründüyünü göstərirlər. Buzun qalınlaşma prosesi gücləndirilir, çünki vurulan dəniz suyu yuxarıdakı yüksək izolyasiyaedici qar təbəqəsini buza çevirir. Bu o deməkdir ki, havanın həddindən artıq soyuğu buzdan daha yaxşı keçir və alt hissədə əlavə buz böyüməsini stimullaşdırır. Ceccolini deyir ki, keçən il "Real Ice" buzun qalınlığına təxminən 30 sm, bu ilki əlavə ilə isə ümumilikdə 50 sm əlavə edib. Bu rəqəm böyük səslənməyə bilər, amma qlobal istiləşmənin yavaşlaması üçün kifayət qədər yaxşı nəticədir.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Böyük Qayıdış"ın birinci mərhələsi: uğurlar və nəticələr

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin, şəhər və kəndlərinin dağılmasının və digər vandal əməllərinin tarixi iki yüz il əvvəllərə gedib çıxır. Bu baxımdan son iki yüz il ərzində iki milyondan çox azərbaycanlı erməni vəhşiliyinin qurbanı olub. Təkcə ötən əsrin sonlarında minlərlə azərbaycanlı öldürülmüş, bir milyondan çox soydaşımız isə öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Tarixi sənədlərə, sübut və dəlillərə əsasən qeyd olunur ki, ötən əsrin 88-ci illərində Ermənistanda yerləşən 185 Azərbaycan kəndindən 250000 çox həmvətənlərimiz qovulub, 31000 yaşayış evi, 165 kolxoz və sovxoz, çox sayda mal qara qarət olunmuş, 225 nəfər öldürülmüş, 1154 yaralanmışdır. Azərbaycanın 12 rayonu, ümumilikdə 700 yaşayış məntəqəsi işğal olunmuş, 24 min azərbaycanlı qətlə yetirilmiş, 4 minə qədər dinc əhali əsir düşmüş, 4121 nəfər itkin düşmüşdür. İtkin düşənlərdən 320 nəfəri qadın, 69 nəfəri isə uşaqdır. Erməni əsirliyində olmuş 783 nəfərdən 43 nəfəri qadın, 18 nəfəri isə uşaqdır. Erməni əsirliyindən qurtarılan 1325 nəfərdən 312 nəfəri qadın, 125 nəfəri isə uşaqdır. Araşdırmalara əsasən demək olar ki, Ermənistan ərazisində əsirlər üçün 6 düşərgə mövcud olmuşdur. Vardenis uşaq düşərgəsi (250 nəfər), Razdan uşaq düşərgəsi (180 nəfər), Xankəndi uşaq düşərgəsi (180 nəfər), Geçəşən qadın düşərgəsi (320 nəfər), Cermuk qadın düşərgəsi (250 nəfər), Kəlbəcər qadın düşərgəsi (150 nəfər).1992-ci ilin əvvəllərində Azərbaycan-Ermənistan münaqişəsi artıq beynəlxalq məkanın fəal diplomatik müzakirələr predmetinə çevrildi. 1993-cü ilin noyabrın ortalarında Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə xain hücumlarının qarşısı qətiyyətlə alındı. Yenidən formalaşan Azərbaycan Ordusu Ulu Öndərimiz Heydər Əliyevin Ali Baş Komandanlığı ilə erməni terror dəstələrini zərərsizləşdirmək üçün uğurlu hərbi əməliyyatlar keçirdi. Azərbaycan Ordusunun müvəffəqiyyətli əməliyyatları nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsi və 22 kənd düşməndən təmizləndi. Bunun ardınca Cəbrayıl və Kəlbəcər rayonları ərazisinin bir hissəsi də düşməndən azad edildi, düşmən strateji yüksəkliklərdən qovuldu, Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsi nəzarət altına alındı.

## Uğurlu siyasətin məntiqli nəticəsi

Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev 2003-cü il də xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçilməsindən sonra ordu quruculuğu istiqamətində əhəmiyyətli işlər həyata keçirdi. Nəticədə Azərbaycanın Silahlı Qüvvələri gücünə, qüdrətinə görə dünyanın ən güclü 50 ordusu siyahısında yer aldı. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən Müharibəsi ilə Azərbaycan ordusu erməni terrorçu-hərbi birləşmələrini məhv edərək 30 il işğal altında olmuş torpaqlarımızı azad etdi. 2023-cü il sentyabrın 19-da isə bir neçə saatlıq anti-terror əməliyyatları ilə Xankəndidəki terrorçu birləşmələrin rəhbərləri tərk silah edilərək həbs olundular. Artıq onlar məhkəmə qarşısına çıxarılaraq hər biri layiq olduqları cəzanı alıblar.

Bu gün işğaldan azad edilən ərazilərimiz rahat nəfəs alır. İşğaldan azad edilən ərazilərdə geniş miqyaslı təmir, tikinti, bərpa işləri həyata keçirilir. 2022-ci ildə Zəngilanın Ağalı kəndinə başlanan köç prosesi hazırda azad olunmuş digər ərazilərdə uğurla davam edir. Minlərlə ailənin doğma yurd-yuvasına qayıdışı, orada normal həyatın bərpa etdirilməsinə geniş imkanlar yaradıb. Həyata keçirilən uğurlu quruculuq, abadlıq, tikinti işləri nəticəsində min km-lərlə avtomobil və dəmir yolu, bütün əraziyə elektrik enerjisi, təbii qaz və su xətləri çəkilib, 3 beynəlxalq hava limanı tikilərək istifadəyə verilib.

Eyni zamanda işğaldan azad edilmiş yaşayış məntəqələrində çoxsaylı fərdi yaşayış evləri və mənzillər, sosial obyektlər inşa edilərək insanların istifadəsinə verilib. Əhalinin köçürülməsi və onların məşğulluğunun təmin edilməsi üçün xüsusi Dövlət Proqramı hazırlanmış və icra edilməkdədir. "Böyük Qayıdış" Dövlət Proqramının birinci mərhələsi 2026-cı ildə başa çatacaq və bundan sonra ikinci mərhələ təsdiq edilərək icra olunacaqdır. Qəbul edilən qərara əsasən "Böyük Qayıdış"




Dövlət Proqramının uğurla başa çatdırılması üçün lazım olan bütün işlər həyata keçirilib. Xüsusilə də, 2026-cı ildə işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün 3 500 milyon manat vəsait ayrılıb. Bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə olunub və "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb. Sənədə əsasən, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2026-cı ilin dövlət büdcəsində 3 500 000 000 manat məbləğində vəsait nəzərdə tutulur

## 2026-cı ilin sonunadək işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 34500 mənzil və fərdi yaşayış evi inşa ediləcək

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq əhalinin yeni yaşayış şəraitinə adaptasiya olunması üçün reinteqrasiya tədbirlərinin təşkili, inşa edilmiş evlərə ailələrin köçürülməsi məqsədilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün 41 900 000 manat vəsait proqnozlaşdırılır ki, bu da 2025-ci illə müqayisədə 13 100 000 manat və ya 45,5 % çoxdur. Büdcə layihəsində həmin proqram çərçivəsində işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən qeyri-dövlət (maliyyə və avtonəqliyyat vasitələri ilə yük daşıma sahələrində fəaliyyət göstərən, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına malları (işləri və xidmətləri) təqdim edən podratçılar (işğaldan azad edilmiş ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) sektoru üzrə neft-qaz sahələrində fəaliyyəti olmayan sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması məqsədilə 5 000 000 manat, işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 %-i məbləğində maliyyə yardımının ödənilməsi məqsədilə 2 000 000 manat vəsait nəzərdə tutulur.

Bütövlükdə 2026-cı ilin dövlət xərclərindən (bütün xərc bölmələri üzrə) işğaldan azad edilmiş ərazilərin bərpası, yenidənqurması və digər tədbirlər üzrə cəm olaraq 3 548 900 000 manat məbləğində vəsait yönəldiləcək. Birinci Dövlət Proqramına əsasən 2026-cı ilin sonunadək işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 34500 mənzil və fərdi yaşayış evi inşa ediləcəkdir. 197 məktəbəqədər və ümumi təhsil müəssisəsinin, 8 peşə təhsili və 1 orta ixtisas təhsili müəssisəsinin tikintisi və bərpası nəzərdə tutulur. Sahibkarlıq fəaliyyəti üçün əlverişli mexanizmlərin yaradılması və bu sahədə məşğulluğun artırılması "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində qarşıya qoyulmuş əsas vəzifələrdən biridir. 2026-cı ilin sonunadək işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 26 avtomobil yolu layihəsi başa çatdırılacaq. 2026-cı ilin sonuna qədər "Böyük Qayıdış" proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır. Bütövlükdə "Böyük Qayıdış" proqramının birinci mərhələsində bütün azad olunmuş şəhərlərdə daxil olmaqla, 100 yaşayış məntəqəsinin yenidən qurulması və məskunlaşdırılması nəzərdə tutulur. "Böyük Qayıdış" proqramının ikinci mərhələsi isə üç fazadan ibarət olmaqla, 2026-2040-cı illəri əhatə edəcək. Bu müddətdə bütün işlər tamamlanacaq və insanlar bütövlükdə öz yurdlarında yerləşəcəklər.

**İ.ƏLİYEV**

SON SƏHİFƏ
SƏS
23 iyun
2026-cı il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


ARAŞDIRMA

# Diabet üçün təhlükəli meyvə və tərəvəzlər - bu yazını mütləq oxuyun!




***Diabet (şəkərli diabet) qanda qlükoza səviyyəsinin xroniki olaraq yüksəlməsi ilə xarakterizə olunan metabolik xəstəlikdir. Qidalanma bu xəstəliyin idarə olunmasında əsas rol oynayır. Çox vaxt "meyvə və tərəvəz sağlamdır" fikri ümumi doğru olsa da, diabet xəstələri üçün bəzi məhsulların miqdarı və qlikemik təsiri xüsusi əhəmiyyət daşıyır. Burada əsas məsələ meyvə və tərəvəzin tam qadağan olunması deyil, onların qlikemik indeks (GI), şəkər tərkibi və sorulma sürətidir. SİA mövzu ilə bağlı araşdırma edib.***

## Diabet üçün risk yaradan meyvələr hansılardır?

Bəzi meyvələrdə təbii fruktoza çox yüksəkdir. Bu, qanda qlükozanın sürətlə artmasına səbəb ola bilər, xüsusilə də miqdar nəzarətsiz olduqda.

## Ən çox risk yaradan meyvələr

**Üzüm**
Üzüm yüksək təbii şəkər tərkibinə malikdir və tez sorulur. Bu səbəbdən porsiya nəzarəti olmadan istifadə edildikdə qanda şəkəri sürətlə yüksəldə bilər.

**Banan (xüsusilə çox yetişmiş)**
Yetişmiş bananlarda nişasta şəkərə çevrildiyi üçün qlikemik təsir artır. Bu da diabet xəstələri üçün daha sürətli qlükoza artımı yarada bilər.

**Qarpız**
Qarpızın qlikemik indeksi yüksəkdir, çünki tez həzm olunur. Kalori az olsa da, qan şəkərini sürətlə qaldıra bilər.

**Mango və ananas**
Bu tropik meyvələr həm şəkər, həm də yüksək karbohidrat tərkibinə görə risk qrupuna daxildir.

**Qurudulmuş meyvələr**
Qurudulmuş ərik, kişmiş, xurma kimi məhsullarda su azaldığı üçün şəkər konsentrasiyası artır. Bu, onları daha "konsentrat şəkər mənbəyi" edir.

## Diabet üçün riskli tərəvəzlər varmı?

Tərəvəzlər ümumiyyətlə meyvələrdən daha təhlükəsiz hesab olunur, lakin bəzi istisnalar var.

## Nişastalı tərəvəzlər niyə diqqət tələb edir?

Bəzi tərəvəzlərdə karbohidrat miqdarı yüksəkdir və bu, qlükoza səviyyəsinə təsir göstərə bilər.

**Kartof**
Kartof xüsusilə qaynadılmış və ya püresi formada olduqda qlikemik təsir yüksəlir. Qızardılmış kartof isə əlavə yağ səbəbindən daha da problemli olur.

**Çuğundur**
Təbii şəkər tərkibi nisbətən yüksəkdir və çox miqdarda qəbul edildikdə qlükozanı artıra bilər.

**Yerkökü (çiy vs bişmiş)**
Çiy yerkökü daha az təsir göstərir, lakin bişmiş formada qlikemik indeks artır.

**Qarğıdalı**
Nişasta tərkibi yüksək olduğu üçün diabet xəstələri üçün porsiya nəzarəti vacibdir.

## Meyvə və tərəvəzin təhlükəli olması nə deməkdir?

Burada "təhlükə" tam qadağa mənasında deyil. Əsas məsələ:
miqdar
hazırlama üsulu
fərdi insulin həssaslığı kimi faktorlardır.
Məsələn, eyni banan bir insanda ciddi təsir göstərməyə bilər, digərində isə şəkəri sürətlə yüksəldə bilər.

## Qlikemik indeks nəyi göstərir?

Qlikemik indeks qidanın qanda şəkəri nə qədər sürətlə artırdığını göstərir.
Aşağı GI (0-55): daha təhlükəsiz
Orta GI (56-69): nəzarət tələb edir
Yüksək GI (70+): ehtiyatla istifadə olunmalıdır
Yuxarıda sadalanan bəzi meyvə və tərəvəzlər yüksək GI qrupuna daxildir.

## Diabet xəstələri meyvədən imtina etməlidirmi?

Meyvə tamamilə qadağan edilmir. Əksinə, tərkibində lif, vitamin və antioksidantlar olduğu üçün faydalıdır.
Sadəcə:
porsiya az olmalı
günün düzgün vaxtında yeyilməli şəkər səviyyəsi izlənilməlidir
Daha təhlükəsiz meyvə və tərəvəz nümunələri
Aşağı GI olan və daha stabil təsir göstərən məhsullar:
alma
armud
giləmeyvələr (çiyələk, böyürtkən)
brokoli
ispanaq
xiyar
kələm

## Diabetdə qidalanma balansı necə qurulmalıdır?

Diabetin idarə olunmasında əsas məqsəd qidanı tam məhdudlaşdırmaq deyil, qan şəkərinin gün ərzində sabit saxlanmasıdır. Buna görə meyvə və tərəvəzlərin seçimi ilə yanaşı, onların necə və nə ilə birlikdə qəbul edilməsi də vacib rol oynayır.

Məsələn, tək meyvə yemək qlükozanın daha sürətli qalxmasına səbəb ola bilər, lakin onu zülal və ya lifli qidalarla birgə qəbul etmək bu prosesi ləngidir. Bu səbəbdən qidalanma modeli çox vaxt "qlükoza sıçrayışının qarşısını alma" prinsipi üzərində qurulur.

## Meyvənin qəbul vaxtı niyə vacibdir?

Eyni meyvə günün fərqli saatlarında fərqli təsir göstərə bilər.

Səhər saatlarında və ya fiziki aktivlikdən əvvəl qəbul edilən meyvə enerji mənbəyi kimi istifadə oluna bilər. Lakin axşam saatlarında, xüsusilə hərəkətsizlik fonunda qəbul edilən yüksək şəkərli meyvələr qanda qlükozanın daha uzun müddət yüksək qalmasına səbəb ola bilər. Bu səbəbdən diabet xəstələrinə meyvəni əsas yeməklərlə birlikdə və ya ondan sonra kiçik porsiyalarla qəbul etmək daha uyğun sayılır.

## "Sağlam meyvə" anlayışı niyə bəzən yanıldıcı olur?

Cəmiyyətdə geniş yayılmış fikir budur ki, meyvə nə qədər təbii olsa, bir o qədər təhlükəsizdir. Lakin diabet baxımından bu tam doğru deyil.
Meyvənin tərkibindəki:
fruktoza miqdarı
lif tərkibi
yetişmə dərəcəsi onun qlikemik təsirini dəyişir.
Məsələn, çox yetişmiş meyvələrdə şəkər daha sadə formaya keçdiyi üçün qana daha sürətli sorulur. Bu isə "sağlam" hesab edilən meyvənin belə qanda şəkəri yüksəltməsinə səbəb ola bilər.

## Fərdi fərqlər niyə önəmlidir?

Diabet hər insanda eyni şəkildə təzahür etmir. Bəzi insanlarda insulin həssaslığı daha yüksək, digərlərində isə daha aşağı olur. Buna görə eyni qida iki fərqli insanda fərqli nəticə verə bilər.
Bu fərdi dəyişkənliklər:
xəstəliyin mərhələsi
bədən çəkisi
fiziki aktivlik səviyyəsi
qəbul edilən dərmanlar ilə birbaşa bağlıdır.

Meyvə və tərəvəzlər ümumilikdə sağlam qidalar olsa da, diabet xəstələri üçün onların hamısı eyni təsirə malik deyil. Yüksək şəkərli meyvələr və nişastalı tərəvəzlər qanda qlükozanı daha sürətlə artırdığı üçün diqqətlə və nəzarətli şəkildə qəbul edilməlidir.

Əsas prinsip qidanı tamamilə çıxarmaq deyil, miqdar, seçim və balansı düzgün idarə etməkdir. Bu yanaşma həm diabetin idarə olunmasını asanlaşdırır, həm də ümumi sağlamlığı qoruyur.

***Günel Fərzəliyeva***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**